**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin**
**Layihələrin idarə olunması şöbəsinin**
**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra – Nazirlik) Aparatının struktur bölməsi olan Layihələrin idarə olunması şöbəsi (bundan sonra – şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində dövlət-özəl tərəfdaşlığı və strateji layihələrin planlaşdırılması və idarə olunması sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak edir, aidiyyəti dövlət orqanları ilə birlikdə bu siyasətin həyata keçirilməsini, dövlət qurumları və sahibkarlıq subyektləri tərəfindən təqdim olunan layihələrin icrası və icradan sonrakı mərhələlərdə sistemli təhlilinin aparılmasını və qanunvericiliklə müəyyən edilmiş qaydada monitorinq funksiyalarının yerinə yetirilməsini, nəticələrinə dair müvafiq hesabatın hazırlanmasını və dövlət-özəl tərəfdaşlığı layihələri ilə əlaqədar müsabiqə prosedurlarının normativ tələblərə uyğun təşkili və həyata keçirilməsini təmin edir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında” Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”ni, digər qanunvericilik aktlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin (bundan sonra – Nazir) əmr və sərəncamlarını (bundan sonra – təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin Aparatının bölmələri, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (bundan sonra – Nazirliyin strukturları), təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslər, mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları,

eləcə də dövlət-özəl tərəfdaşlığı, habelə strateji layihələrin icrasını həyata keçirən sifarişçi təşkilatlar ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4.Bu Əsasnamənin müddəaları dövlət investisiya layihələrinə şamil edilmir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.1. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.1.1. dövlət-özəl tərəfdaşlığı sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsində iştirak edir;

2.1.2. dövlət qurumları və təşkilatları tərəfindən təqdim olunan, o cümlədən Nazirlik üzrə potensial dövlət-özəl tərəfdaşlığı layihələrinin qüvvədə olan strateji sənədlər əsasında qiymətləndirilməsi, planlaşdırılması və mərhələli icrası üzrə fəaliyyətin əlaqələndirilməsini həyata keçirir;

2.1.3. dövlət-özəl tərəfdaşlığı layihələrinin icrasının təmin olunması məqsədilə qanunvericiliklə müəyyən edilmiş qaydada müsabiqə prosedurlarının və ya birbaşa danışıqların təşkilini, habelə iddiaçının özəl təşəbbüsünün meyarlara uyğun qiymətləndirilməsini həyata keçirir;

2.1.4. dövlət-özəl tərəfdaşlığı layihələri üzrə formalaşmış məlumat bazası vasitəsilə müvafiq layihələrin monitorinqini həyata keçirir;

2.1.5.strateji layihələr üzrə institusional, maliyyə və risk amillərinin ilkin qiymətləndirilməsini həyata keçirir və layihələrin icrası ilə bağlı analitik hesabatlar hazırlayır;

2.1.6. strateji layihələrin səmərəli və vaxtında həyata keçirilməsinə nəzarətin təmin edilməsi məqsədilə layihələr üzrə icra göstəricilərinin real vaxt rejimində izlənilməsinə imkan verən hesabatlılıq və idarəedici informasiya sistemlərinin (elektron platformaların) yaradılmasını və tətbiqini təmin edir;

2.1.7. dövlət qurumları və təşkilatları, eləcə də sahibkarlıq subyektləri tərəfindən təqdim olunan investisiya layihələri üzrə planlaşdırma, icra və icradan sonrakı mərhələlərdə sistemli təhlil və monitorinqin aparılmasını təmin edir;

2.1.8. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, şöbənin vəzifələri aşağıdakılardır:

3.1.1. dövlət-özəl tərəfdaşlığı sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi üzrə təkliflərin hazırlanması və icrasını təmin etmək;

3.1.2. dövlət orqanları tərəfindən təklif olunan layihələrin siyahısı və müvafiq sənədlərə (layihə-konsepsiya, ilkin texniki-iqtisadi əsaslandırma, texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin layihələri) digər aidiyyəti struktur bölmələrlə birgə baxılmasını həyata keçirmək və səlahiyyətləri çərçivəsində müvafiq rəy bildirmək;

3.1.3. dövlət-özəl tərəfdaşlığı layihəsinin icrası üzrə müsabiqə sənədlərinin və müqavilə layihələrinin hazırlanmasını təmin etmək;

3.1.4. özəl tərəfdaşın müəyyən edilməsi məqsədilə müsabiqə və ya birbaşa danışıqların təşkilini təmin etmək;

3.1.5. müsabiqənin şərtlər toplusunun hazırlanmasını və layihə üzrə dövlət tərəfdaşı ilə razılaşdırılmasını, dövlət-özəl tərəfdaşlığı layihəsinin müsabiqəyə çıxarılmasını və ya birbaşa danışıqlar əsasında müqavilənin bağlanılmasını, habelə müqaviləyə dəyişiklik edilməsini təmin etmək;

3.1.6. müsabiqə üzrə layihə təkliflərinə baxılması və qalibin seçilməsi müddətinin müəyyən edilməsini təmin etmək;

3.1.7. dövlət-özəl tərəfdaşlığı müsabiqəsinə təqdim edilmiş hər bir layihə üzrə aidiyyəti dövlət orqanları və müvafiq təşkilatların səlahiyyətli nümayəndələrinin iştirakı ilə dövlət-özəl tərəfdaşlığı qaydalarına uyğun fəaliyyət göstərən işçi qrupların formalaşdırılmasını həyata keçirmək;

3.1.8. dövlət-özəl tərəfdaşlığı layihəsinin icrasının “Dövlət-özəl tərəfdaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun monitorinqini həyata keçirmək və nəticəsi barədə yekun qiymətləndirmələrə dair münasibət bildirmək, habelə il ərzində təqdim edilmiş yekun qiymətləndirmə sənədləri əsasında icmal hesabat hazırlamaq və məlumat və nəzərə alınması üçün icraçı qurumlara təqdim etmək;

3.1.9. dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsi üçün tələb olunan torpaq sahələrinin müsabiqənin şərtlər toplusunda nəzərdə tutulduğu formada və müvafiq qanunvericiliyə uyğun müddətdə özəl tərəfdaşa ayrılması ilə bağlı fəaliyyəti əlaqələndirmək;

3.1.10. dövlət-özəl tərəfdaşlığı müqaviləsi ilə tənzimlənən risk halları yarandıqda, “Dövlət-özəl tərəfdaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yeni özəl tərəfdaşın təyin edilməsi ilə bağlı təkliflər vermək;

3.1.11. dövlət-özəl tərəfdaşlığı layihələrinin həyata keçirilməsi üçün "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikası Qanunu çərçivəsində nəzərdə tutulmuş digər tədbirlər görmək;

3.1.12. dövlət qurumları və təşkilatları, eləcə də digər aidiyyəti maraqlı tərəflərlə birgə strateji layihələrin formalaşdırılmasında və əlaqələndirilməsində iştirak etmək, bu istiqamətdə aidiyyəti təkliflər hazırlamaq və icrasını təmin etmək;

3.1.13. strateji layihələr üzrə layihə-konsepsiya, ilkin texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanmasında iştirak etmək;

3.1.14. strateji layihələrin icrasına dair dövri və yekun hesabatlar əsasında layihələrin icrasının monitorinqini həyata keçirmək və monitorinqin nəticələrinə uyğun olaraq dövri və yekun icmal hesabatın hazırlanmasını və müvafiq qaydada təqdim olunmasını təmin etmək;

3.1.15.dövlət qurumları və təşkilatları, eləcə də sahibkarlıq subyektləri tərəfindən təqdim olunan investisiya layihələri üzrə analitik araşdırmalar aparmaq, layihə-konsepsiya və texniki-iqtisadi əsaslandırma sənədlərinin təhlilini həyata keçirmək, layihələrin iqtisadi, maliyyə və institusional səmərəliliyinin qiymətləndirilməsinə dair əsaslandırılmış rəylər və müvafiq təkliflər hazırlamaq;

3.1.16. investisiya layihələrinin icra mərhələsində və sonrakı dövrlərdə icra vəziyyətinin mütəmadi monitorinqini təşkil etmək və faktiki göstəricilərin təsdiq olunmuş icra planları ilə müqayisəli təhlilini aparmaq;

3.1.17. investisiya layihələrinin icrası zamanı yaranan gecikmələrin, maliyyə və texniki risklərin, xərc və icra qrafiklərindən kənarlaşmaların müəyyən edilməsi və aradan qaldırılması tədbirləri üzrə müvafiq təkliflər hazırlamaq;

3.1.18. müvafiq investisiya layihələrinin icrası üzrə dövlət qurumları və təşkilatları, eləcə də sahibkarlıq subyektləri tərəfindən təqdim olunan dövri və yekun hesabatlar, habelə yerinə yetirilmiş monitorinq tədbirlərinin nəticələri əsasında ümumiləşdirilmiş analitik hesabatların hazırlanaraq rəhbərliyə, aidiyyəti struktur bölmələrə və icraçı qurumlara təqdim etmək;

3.1.19. dövlət qurumları və təşkilatları, eləcə də digər aidiyyəti maraqlı tərəflərlə birgə strateji layihələrin formalaşdırılması və əlaqələndirilməsi üzrə fəaliyyətin həyata keçirilməsində iştirak edir, bu istiqamətdə aidiyyəti üzrə təkliflər hazırlayır və icrasını təmin edir;

3.1.20. strateji layihələrinin icrası prosesində yaranan maneələrin və risklərin aradan qaldırılması məqsədilə aidiyyəti dövlət orqanları və müvafiq strukturlarla birgə tədbirlər həyata keçirir;

3.1.21. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

3.1.22. səlahiyyətləri çərçivəsində müvafiq dövlət proqramları, strategiyalar və tədbirlər planları üzrə Nazirlik qarşısında müəyyən edilmiş məqsəd və hədəflərin icrasının təmin olunması istiqamətində aidiyyəti tədbirlərinin həyata keçirilməsində iştirak etmək;

3.1.23. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.1.24. şöbənin fəaliyyət istiqamətlərinə uyğun aparılmış iqtisadi təhlillərin nəticələrinə uyğun statistik məlumat bazasını formalaşdırmaq və həmin məlumatların müvafiq qaydada təqdim olunmasını təmin etmək;

3.1.25. fəaliyyət istiqamətləri üzrə normativ-metodiki bazanın formalaşdırılması və təkmilləşdirilməsi prosesində iştirak etmək;

3.1.26. şöbənin iş planını, fəaliyyəti ilə bağlı dövri hesabatları hazırlamaq;

3.1.27. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təşkilatların və işçi qrupların fəaliyyətində iştirak etmək;

3.1.28. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

4.1. Şöbə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. səlahiyyətləri çərçivəsində fəaliyyət istiqamətlərinə uyğun aidiyyəti dövlət orqanlarına təkliflər vermək, dövlət-özəl tərəfdaşlığı layihələrinin icrasının monitorinqini həyata keçirmək və müvafiq qiymətləndirilmələrdə iştirak etmək;

4.1.2. səlahiyyətləri çərçivəsində aidiyyəti vəzifələrin yerinə yetirilməsi üçün investisiya layihələri üzrə müvafiq struktur bölmələr, dövlət orqanları, sifarişçi təşkilatlar və digər idarə və müəssisələrdən zəruri məlumatları və sənədləri tələb etmək;

4.1.3. Nazirliyin strukturları tərəfindən hazırlanmış sənəd layihələrinə dair aidiyyəti üzrə rəy və təkliflər vermək;

4.1.4. investisiya layihələrinin icrası ilə bağlı aparılmış təhlil və monitorinqlərin nəticələrinə əsasən müəyyən olunmuş risklərə dair rəhbərlik qarşısında məsələ qaldırmaq;

4.1.5. fəaliyyət istiqamətlərinə uyğun Nazirlik və tabeliyindəki qurumlar tərəfindən yaradılmış proqram təminatları və informasiya sistemlərinə çıxışla təmin olunmaq;

4.1.6. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə zəruri məlumatların və müvafiq sənədlərin əldə olunması barədə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə sorğu vermək və sorğu olunan məlumatların və sənədlərin əldə olunmasını təmin etmək;

4.1.7. bu Əsasnamədə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri çərçivəsində Nazirliyin strukturlarına müvafiq sorğular ünvanlamaq və sorğu nəticələrinə uyğun məlumatlar və sənədləri əldə etmək;

4.1.8. dövlət-özəl tərəfdaşlığı və strateji layihələrin icrasına nəzarətin təmin olunması və bu sahədə səmərəli hesabatlılıq sisteminin yaradılması məqsədilə xüsusi proqram təminatlarından istifadə etmək;

4.1.9. fəaliyyət dairəsinə aid edilmiş məsələlərlə bağlı səlahiyyətləri daxilində Nazirliyi dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək, hüquq və mənafelərini müdafiə etmək;

4.1.10. fəaliyyət istiqamətlərinə uyğun məsələlər üzrə Nazirlik və ya digər dövlət qurumları tərəfindən yaradılmış komissiyalarda, işçi qruplarında, məşvərətçi və əlaqələndirici orqanlarda, müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək, onların işində iştirak etmək;

4.1.11. Nazirliyin və tabeliyindəki qurumlarının strateji inkişaf planlarının hazırlanmasında iştirak etmək və müvafiq strateji hədəflərin müəyyənləşdirilməsi üzrə layihələrin icrasına dair təkliflər vermək;

4.1.12. fəaliyyət istiqamətləri üzrə normativ hüquqi akt layihələrini hazırlamaq və müvafiq təkliflər vermək;

4.1.13. dövlət-özəl tərəfdaşlığı, habelə strateji layihələrin monitorinqi prosesində zəruri hallarda ixtisaslı mütəxəssislərin, eləcə də Nazirliyin digər aidiyyəti strukturlarının əməkdaşlarının cəlb olunması ilə bağlı rəhbərlik qarşısında məsələ qaldırmaq;

4.1.14. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təşkilatların və işçi qrupların fəaliyyətində iştirak etmək;

4.1.15.investisiya layihələrinin təhlili və monitorinqi sahəsində qabaqcıl beynəlxalq təcrübələri və mövcud qanunvericilik aktlarını təhlil etmək, onların təkmilləşdirilməsi üzrə təkliflər hazırlamaq, habelə digər dövlət orqanları tərəfindən qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin layihələrinin işlənib hazırlanmasında iştirak etmək və müvafiq təkliflər vermək;

4.1.16. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən və təsdiq edilir. Şöbə bilavasitə nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz.

Şöbənin strukturuna Dövlət-özəl tərəfdaşlığı, Strateji layihələr və İnvestisiya layihələrinin təhlili və monitorinqi sektorları daxildir.

5.2. Şöbənin fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (şöbə müdiri) rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavin(lər)i vardır.

5.4. Şöbə müdiri olmadıqda onun səlahiyyətləri müəyyən edilmiş qaydada şöbə müdirinin müavini (müavinlərindən biri) və ya nazir tərəfindən təyin olunmuş digər şəxs tərəfindən həyata keçirilir. Şöbə müdirinin müavin(lər)i şöbə müdiri tərəfindən on(lar)a həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır(lar).

5.5. Şöbənin digər əməkdaşları nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.6. Şöbə müdiri:

5.6.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.6.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.6.3. şöbəyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.6.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, şöbə tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.6.5. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.6.6. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.6.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.6.8. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.6.9. şöbəni təmsil edir.

5.7. Şöbənin əməkdaşları əmək və icra intizamına əməl edir, bu Əsasnamənin tələblərinin pozulmasına, habelə vəzifələrin vaxtında və düzgün icra edilməsinə görə məsuliyyət daşıyırlar.

5.8. Şöbənin əməkdaşları dövlət sirri, yaxud xidməti sirr təşkil edən məlumatların mühafizə olunmasına görə öz vəzifəsinə və səlahiyyətlərinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri**

6.1. Dövlət-özəl tərəfdaşlığı sektorunun vəzifələri aşağıdakılardır:

6.1.1. dövlət-özəl tərəfdaşlığı sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi istiqamətində aidiyyəti təkliflər hazırlamaq və icrasını təmin etmək;

6.1.2. dövlət orqanları tərəfindən təklif olunan layihələrin siyahısına və müvafiq sənədlərə (layihə-konsepsiya, ilkin texniki-iqtisadi əsaslandırma, texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin layihələri) digər aidiyyəti struktur bölmələrlə birgə baxaraq səlahiyyətləri çərçivəsində müvafiq rəy bildirmək;

6.1.3. dövlət-özəl tərəfdaşlığı layihələrinin icrası üzrə monitorinq tədbirlərinin həyata keçirilməsində iştirak etmək;

6.1.4. dövlət-özəl tərəfdaşlığı layihəsinin icrası üzrə müsabiqə sənədlərinin və müqavilələrin layihələrinin hazırlanmasını təmin etmək və layihədə dövlət tərəfdaşı qismində çıxış edən dövlət orqanını (qurumunu), habelə bələdiyyə və ya bələdiyyə müəssisəsini müəyyən etmək;

6.1.5 özəl tərəfdaşın müəyyən edilməsi məqsədilə müsabiqə və ya birbaşa danışıqların təşkilini təmin etmək;

6.1.6. müsabiqənin şərtlər toplusunun hazırlanmasını və layihə üzrə dövlət tərəfdaşı ilə razılaşdırılmasını, dövlət-özəl tərəfdaşlığı layihəsinin müsabiqəyə çıxarılmasını və ya birbaşa danışıqlar əsasında müqavilənin bağlanılmasını, habelə müqaviləyə dəyişiklik edilməsini təmin etmək;

6.1.7. dövlət-özəl tərəfdaşlığı ilə bağlı layihə təkliflərinin monitorinqi və qiymətləndirilməsinin avtomatlaşdırılmış qaydada həyata keçirilməsi məqsədilə məlumat bazası sisteminin qurulması və idarə olunmasında iştirak etmək;

6.1.8. dövlət-özəl tərəfdaşlığı layihələrinin icrası üzrə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinin, həmçinin sifarişçi təşkilatların bu sahədə fəaliyyətlərinin əlaqələndirilməsinə dair təkliflər vermək;

6.1.9. dövlət-özəl tərəfdaşlığı layihələrinin icrası və monitorinqi sahəsində tənzimləyici qanunvericilik aktlarını təhlil etmək, onların təkmilləşdirilməsinə dair təkliflər vermək, habelə qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, digər dövlət orqanları tərəfindən təqdim olunmuş qanunvericilik aktlarının layihələrinə dair rəy və təkliflər bildirmək;

6.1.10. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövri hesabat layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.1.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.2. Strateji layihələr sektorunun vəzifələri aşağıdakılardır:

6.2.1. dövlət qurumları və təşkilatları, eləcə də sahibkarlıq subyektləri ilə birgə investisiya layihələrinin formalaşdırılması və əlaqələndirilməsini həyata keçirmək, bu istiqamətdə aidiyyəti təkliflər hazırlamaq və icrasını təmin etmək;

6.2.2. strateji layihələr üzrə layihə-konsepsiya, ilkin texniki-iqtisadi əsaslandırma, texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanmasında iştirak etmək və müvafiq qaydada təqdim olunmasını təmin etmək;

6.2.3. strateji layihələrin icrasına dair dövri və yekun hesabatlar əsasında layihələrin icrasının monitorinqini həyata keçirmək və monitorinqin nəticələrinə uyğun olaraq dövri və yekun icmal hesabatların hazırlanmasını və müvafiq qaydada təqdim olunmasını təmin etmək;

6.2.4. strateji layihələrin vahid reyestrinin aparılmasını və onların icra vəziyyətinə dair hesabatların hazırlanmasını təmin etmək;

6.2.5. strateji layihələrin icrası üzrə ayrılmış vəsaitin istifadəsində gecikmələr müəyyən edildiyi təqdirdə, həmin vəsaitin digər layihələrin icrasına yönəldilməsi istiqamətində təkliflər hazırlamaq;

6.2.6. strateji layihələrin həyata keçirilməsi ilə bağlı nəzərdə tutulmuş tədbirlərin icrasının, həmçinin sifarişçi təşkilatların bu sahədə fəaliyyətlərinin əlaqələndirilməsini təmin etmək;

6.2.7. strateji layihələrin icrası və monitorinqi sahəsində tənzimləyici qanunvericilik aktlarını təhlil etmək, onların təkmilləşdirilməsinə dair təkliflər vermək, habelə qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, digər dövlət orqanları tərəfindən təqdim olunmuş qanunvericilik aktlarının layihələrinə dair rəy və təkliflər bildirmək;

6.2.8. strateji layihələrin icrası və monitorinqi sahəsində rəqəmsal transformasiya və innovativ yanaşmaların müəyyənləşdirilməsi üzrə təkliflər hazırlamaq və onların tətbiqini həyata keçirmək;

6.2.9. strateji layihələrin idarə edilməsi üzrə mütəxəssislərin peşəkar inkişafını dəstəkləmək məqsədilə təlim və seminarlarda iştirak, eləcə də beynəlxalq təcrübə mübadiləsinin təmin olunması üçün xarici tərəfdaşlarla əməkdaşlıq etmək;

6.2.10. strateji layihələrin planlaşdırılması və icrası prosesində dayanıqlılıq prinsiplərinin və ətraf mühitə təsirin azaldılması standartlarının tətbiqində iştirak etmək və yarana biləcək mümkün risklərin idarə edilməsinin təkmilləşdirilməsi üzrə təkliflər hazırlamaq;

6.2.11. strateji layihələrin icrası və monitorinqi üzrə əldə olunmuş nəticələrin qiymətləndirilməsi üçün metodoloji çərçivələr, müqayisəli təhlil alətləri və müvafiq təkliflər hazırlamaq;

6.2.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövri hesabat layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.2.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.3. İnvestisiya layihələrinin təhlili və monitorinqi sektorunun vəzifələri aşağıdakılardır:

6.3.1. dövlət qurumları və təşkilatları, eləcə də sahibkarlıq subyektləri tərəfindən təqdim olunan investisiya layihələri üzrə planlaşdırma, icra və icradan sonrakı mərhələlərdə sistemli təhlillərin və mütəmadi monitorinqlərin aparılmasını həyata keçirmək;

6.3.2. investisiya layihələrinin planlaşdırılması, icrası və icradan sonrakı mərhələləri üzrə iqtisadi, maliyyə və icra göstəricilərinin müqayisəli təhlili əsasında analitik hesabat və tövsiyələr hazırlamaq;

6.3.3. investisiya layihələri üzrə layihə-konsepsiya və texniki-iqtisadi əsaslandırma sənədlərinin təhlilini həyata keçirmək, layihələrin iqtisadi, maliyyə və institusional səmərəliliyini qiymətləndirmək və müvafiq təkliflər hazırlamaq;

6.3.4. investisiya layihələrinin faktiki göstəricilərinin təsdiq olunmuş icra planları ilə müqayisəli təhlilini aparmaq;

6.3.5. investisiya layihələrinin icrası zamanı yaranan gecikmələrin, maliyyə və texniki risklərin, xərc və icra qrafiklərindən kənarlaşmaların müəyyən edilməsi və aradan qaldırılması tədbirləri üzrə müvafiq təkliflər hazırlamaq;

6.3.6. investisiya layihələrinin icrası üzrə nəticələri qiymətləndirmək, onların sosial-iqtisadi təsirlərinin təhlilini aparmaq və yekun rəylər hazırlamaq;

6.3.7. icrası başa çatmış investisiya layihələri üzrə nəzərdə tutulmuş iqtisadi, sosial və institusional nəticələrə nail olunma səviyyəsini qiymətləndirmək və səmərəlilik göstəricilərini təhlil etmək;

6.3.8. investisiya layihələrinin icrası üzrə monitorinqin nəticələri və təqdim olunan dövri və yekun hesabatlar əsasında ümumiləşdirilmiş analitik hesabatları hazırlayaraq aidiyyəti struktur bölmələrə və icraçı qurumlara təqdim etmək;

6.3.9. investisiya layihələrinin monitorinqi və qiymətləndirilməsi prosesində istifadə edilən metodologiya, meyar və göstəricilərin formalaşdırılmasında və təkmilləşdirilməsində iştirak etmək;

6.3.10. investisiya layihələri üzrə məlumat bazalarının formalaşdırılmasını və monitorinqin nəticələrinə dair məlumatların sistemləşdirilməsini təmin etmək;

6.3.11. investisiya layihələrinin icrası və monitorinqi sahəsində beynəlxalq təcrübələrə dair hesabatlar və tətbiqi imkanları ilə bağlı təkliflər hazırlamaq;

6.3.12. investisiya layihələrinin təhlili və monitorinqi sahəsində normativ-metodiki sənədlərin hazırlanması və təkmilləşdirilməsi üzrə təkliflər vermək;

6.3.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına və görülmüş işlər haqqında dövri hesabat layihələrinə dair şöbə müdirinə təkliflər vermək;

6.3.14. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.